**UOT 75**
**https://doi.org/10.59849/2311-8482.2025.1.379**

**LALƏ SEYİDOVA***

# REGİONAL RƏQSLƏR PƏŞƏKAR RƏQS KOLLEKTİVLƏRİNİN REPERTUARINDA

*Məqalə Azərbaycan xalq rəqslərinin regional kontekstdə öyrənilməsi ilə bağlı araşdırmaları özündə əks etdirir. Burada əsas məqsəd regional rəqslərin peşəkar rəqs kollektivlərinin repertuarında tutduğu yeri müəyyən etmək, xoreoqrafik kompozisiyaların tarixi, yeni təfsirləri və müasir cəhətlərini araşdırmaqdan ibarətdir. Məqalədə xalq rəqslərinin regional nümunələri haqqında məlumat verilmiş, eləcə də peşəkar rəqs kollektivlərinin repertuarına daxil edilmiş "Yallı", "Qazaxı" və "Uzundərə" rəqs kompozisiyaları təhlilə cəlb edilmişdir. Təhlil zamanı adıçəkilən rəqslərin səhnə tarixçəsinə nəzər salınmış, müxtəlif quruluşlar haqqında məlumat verilmişdir. Təhlil zamanı elmi mənbələrlə yanaşı, rəqslərin video yazılarından da istifadə edilmişdir.*

***Açar sözlər:*** xalq rəqsləri, regional xüsusiyyətlər, Yallı, Qazaxı, Uzundərə

## Giriş

Azərbaycan xalq musiqisinin tədqiqində mühüm yer tutan əsas istiqamətlərdən biri də regional ənənələrin öyrənilməsi ilə bağlıdır. Azərbaycan xalq musiqisinin əsas qollarından birini təşkil edən rəqs sənətinin regional konteskdə öyrənilməsi xüsusi tədqiqat obyekti kimi araşdırılmamışdır. Müxtəlif bölgələrə məxsus xalq rəqsləri haqqında ayrı-ayrı tədqiqatlarda məlumatlar yer alsa da, bu problem əsas etibarilə tarixi baxımdan araşdırılmış, rəqslərin xoreoqrafik məzmunu ilə bağlı xüsusiyyətlərə toxunulmamışdır. Göstərilən faktlar təqdim edilən məqalənin mövzusunu aktuallaşdırır.

Xalq rəqslərinin regional konteskdə araşdırılması üçün mövcud elmi ədəbiyyatın incələnməsi ilə yanaşı, bu sənətin əsas daşıyıcıları hesab olunan peşəkar rəqs kollektivlərinin repertuarında yer alan bölgə rəqslərinin təhlili mühüm əhəmiyyət kəsb edir. Bundan başqa professional xoreoqraflardan əldə edilmiş informasiyalar da təqdim edilən araşdırmanın əsas materialını təşkil edir. Xalq rəqslərinin regional xüsusiyyətlərinin öyrənilməsində şifahi ənənəli folklor yaradıcılığı, eləcə də musiqişünaslıq araşdırmaları, ekspedisiya materialları da zəngin mənbə kimi çıxış edir.

## Əsas məzmun

Azərbaycan rəqs sənətinin tədqiqat obyektinə çevrilməsi nisbətən yaxın tarixi əhatə edərək, bu sahədə mövcud elmi əsərlərin sayı baxımından da məhduddur. Xalq rəqsləri ilə bağlı incəsənətin digər sahələrinə məxsus araşdırmalarda verilən qiymətli məlumatlar da daxil olmaqla, rəqslərin xoreoqrafik məzmununun tədqiqi Q.Almaszadənin "Azərbaycan xalq rəqsləri" (1959) [2] metodik vəsaitini, K.Həsənovun "Qədim Azərbaycan xalq rəqsləri" (1983) [8], "Azərbaycan qədim folklor rəqsləri" (1988) [9] monoqrafiyalarını, Hüseynağa Hüseynovun "Səhnə hərəkəti" (1985) [10], Ə.Rəhmanlı və X.Bəşirovun "Milli rəqs sənəti" (2019) [12], R.Bəhmənlinin "Azərbaycan yallıları" (2018) [3], "Azərbaycan gəlin havaları" (2021) [4], "Azərbaycan Qaytağı rəqsləri" (2019) [5], A.Əhmədovun "Azərbaycan milli rəqsləri" [7] və digər müəlliflərin elmi araşdırmalarında öz əksini tapmışdır. Mövzumuz xalq rəqslərinin peşəkar rəqs kollektivlərinin repertuarında yer alan nümunələrini nəzərdə tutduğu üçün araşdırmaya regional rəqslərinin səhnə təcəssümünü əks etdirən xoreoqrafik kompozisiyalar cəlb edilmişdir. Azərbaycan xalq rəqsləri qədim tarixə malikdir. Dünyada ilk yaşayış məskənlərindən biri kimi tanınan Qobustan qayalıqları, Gəmiqaya abidələri üzərində həkk olunan insan rəsmlərinin əl-ələ tutaraq yallı gedən dəstəni xatırlatması Azərbaycan xalq rəqslərinin qədim tarixini əks etdirən fakt kimi qəbul olunur. Bundan başqa günümüzə qədər gəlib çatan qədim mərasim ənənələri, bayramlarda xalq tərəfindən oxuyub-oynanılan havalar rəqs mədəniyyətinin keçmişlərə dayanan qədim ənənələrini özündə qoruyub saxlamışdır.

Xalq rəqs sənəti folklor yaradıcılığının digər janrları kimi regional xüsusiyyətlərə malikdir. Bu xüsusiyyətlər Azərbaycan müxtəlif bölgələrində folklor mühitinin ortaya çıxardığı adət-ənənələrlə, mərasimlərlə, təbii-coğrafi şərait, etnik tərkib və s. faktorların təsiri altında formalaşmışdır. Rəqs sənətinin ilkin nümunələrinin mərasim folkloru ilə bağlı yarandığını nəzərə alaraq ilk təhlillərimizi

bu nümunələr üzərində cəmləşdirmişik.

Xalq rəqslərinin regional kontekstdə araşdırılması iki istiqamətdə aparılmalıdır. Bunlardan biri bütün bölgələrdə yayılmış, lakin hər mühitin özünəməxsus xoreoqrafik ənənələri ilə icra edilən xalq rəqsləri qrupunu ehtiva edir. Digər qrupda isə müəyyən bölgədə yaranıb ifa edilən rəqslər cəmləşir. Birinci qrupa daxil olan rəqslərin regional xüsusiyyətləri bilavasitə onların xoreoqrafik məzmunu ilə əlaqədardırsa, ikinci qrupdakı nümunələrin rəqs və musiqi məzmunu ilə yanaşı tarixi-etnoqrafik göstəriciləri də göz önündə tutulmalıdır. Beləliklə, araşdırmaya cəlb etdiyimiz "Naxçıvan", "Şəki", "Tənzərə" yallıları birinci qrupda, "Uzundərə" və "Qazaxı" isə ikinci qrupda cəmləşən rəqslər sırasında yer almışdır. Rəqslərin seçilməsində əsas meyarlardan biri də adıçəkilən nümunələr əsasında xoreoqrafik kompozisiyaların mövcud olması ilə əlaqədardır.

**Azərbaycan milli xoreoqrafiya sənətinin formalaşmasında Yallı rəqslərinin rolu.** Xalq rəqs sənətinin daha qədim dövrlərə söykənən nümunələri kollektiv rəqslərə aiddir. Çünki rəqs sənətinin bəşər tarixində özünə yer tutması ilk olaraq ritual və ayinlərlə bağlı olmuşdur ki, burada da insanlar məhz kollektiv şəkildə od ətrafında, dairə vuraraq rəqs hərəkətləri icra edirdilər. Bu hərəkətlərin əsas məqsədi ilahi ruhlarla, təbiət qüvvələri ilə əlaqənin yaranmasına xidmət etmək olsa da, rəqsin xoreoqrafik meyarlarının formalaşmasında mühüm rol oynamışdır. Yallı rəqsləri ilə bağlı ilk arxeoloji tapıntılar Azərbaycanın Qobustan və Naxçıvanın Gəmiqaya ərazisində yerləşən qayalıqlar üzərində olan rəsmlərdir ki, 1939 və 1960-cı ildə aşkar edilmişdir. Bu rəqsin tarixi və xoreoqrafiyası ilə bağlı məlumatlar elmi tədqiqatlarda yer alır. K.Həsənov bu rəqsin od ətrafında təşkil edilən ilkin mərasimlərdən gəldiyini hesab edir və onu dünya xalqlarının folklorunda rast gəlinən dairəvi rəqslərin bir növü kimi qiymətləndirir. Alim hesab edir ki, bu rəqsin tarixi onun qayaüstü təsvirlərindən daha qədim dövrələrə təsadüf edir [8, s.56]. Naxçıvan yallılarını tədqiq edən Ə.Kərimli isə bu adın ümumi məzmun daşıdığını və bir sıra rəqsləri birləşdirən xoreoqrafik sistem hesab edir [11, s.9].

Yallı rəqslərinin çoxsaylı növləri Azərbaycanın demək olar ki, hər bölgəsində intişar tapmışdır. Lakin müəyyən bölgələrdə bu rəqsin çoxsaylı növlərinin yaranması burada həm də onun xoreoqrafik məzmununun inkişafına və zənginləşməsinə səbəb olmuşdur. Belə bölgələrədən biri və birincisi Naxçıvandır. Yallı rəqsinin ən çox növü məhz burada yaranmışdır. "Naxçıvan MR-nın Şərur rayonunda yallının 100-dən çox növü olub" [12, s.29]. Təsadüfi deyildir ki, xalq rəqsinin səhnəyə qədəm qoyması ilə xoreoqrafik kompozisiyalara daxil edilən yallıların quruluşu məhz Naxçıvan yallılarından qaynaqlanmışdır.

Yallı rəqslərinin peşəkar rəqs kollektivlərinin repertuarında yer alması XX əsrin 50-ci illərinə təsadüf etmişdir. 1959-cu ildə təşkil edilmiş Azərbaycan ədəbiyyatı və incəsənəti ongünlüyündə dekada çıxış edən Dövlət Mahnı və Rəqs ansamblının repertuarında digər xalq rəqlsəri ilə bərabər Yallı da yer almışdı. Bu rəqsin quruluşu milli xoreoqrafiya sənətinin ustad sənətkarı Əlibaba Abdullayevə məxsus idi. Eyni onillikdə Ə.Abdullayevin "Zorxana-yallı" adlı digər bir xoreoqrafik kompozisiyası da təqdim edilmişdi. Bu kompozisiyada xoreoqraf Şəki yallısına müraciət etmişdi. Göründüyü kimi, 50-ci illərdə artıq peşəkar kollektiv kimi fəaliyyət göstərən Mahnı və Rəqs Ansamblının ifasında yallının iki növünə quruluş verilmiş və mötəbər tədbirlərin konsert proqramına daxil edilmişdi. Zaman keçdikcə yallılarla bağlı yeni quruluşlar yaranır və onların sırasında biz xoreoqraflar F.Vəliyevin, A.Məlikovanın adlarını çəkə bilərik. Dövlət Rəqs ansamblının repertuarında yer alan "Atəşgah", "Qarabağ" və "Qobustan" yallıları uzun illər və günü bu gün də kollektivn ifasında böyük şövqlə təqdim olunur. Yallı rəqslərinin ən müasir kompozisiyaları isə Xalq artisti, bədii rəhbər Rüfət Xəlilzadənin quruluş verdiyi "Tənzərə" və "Zəngəzur" yallıları qeyd edilməlidir. Adıçəkilən kompozisiyaların ortaq cəhəti eyni rəqs sisteminə müraciət olunmasıdırsa, onların bir-birindən fərqləndirən əsas meyar yallıların regional mənsubiyyətini əks etdirən xoreoqrafik məzmunu ilə bağlıdır. Bütün yallılar kollektiv şəkildə icra olunur, lakin, rəqs elementləri, geyim tərzi, musiqi məzmunu birmənalı şəkildə fərqlənir və onların regional xüsusiyyətlərini əks etdirir.

Dövlət rəqs kollektivlərinin repertuarında yer alan regional rəqslər sırasında "Qazaxı" və "Uzundərə" xoreoqrafik kompozisiyaları qeyd edilə bilər. "Uzundərə" xalq rəqsinin adı onun Qarabağda yarandığını aydınlaşdırır. Bu barədə elmi mənbələrdə də qeyd edilmişdir: "Qarabağda yaranmış rəqsə Ağdam rayonu ilə Göytəpə kəndi arasında yerləşən məşhur dərənin adı verilmişdir"

[6, s.644]. Məlumdur ki, bu rəqsin melodiyasından dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəyli "O olmasın bu olsun" musiqili komediyasında istifadə etmişdir. Əsərdə bu rəqsə mətn əlavə olunaraq Məşədi İbad tərəfindən ifa olunur. "Uzundərə" xalq rəqsinin ilk səhnə təcəssümü mənbələrdə 1936-cı ildə yenicə yaradılmış olan Azərbaycan Rəqs Ansamblının ifasında reallaşmışdır. Bu barədə E.Abdullayevnın "Əlibaba Abdullayev" kitabında məlumat verilir [1, s.6]. Kitabda həmçinin bu rəqsə ustad xoreoqraf Ə.Abdullayevin quruluş verməsi ilə bağlı informasiya verilmişdir. Bu da "O olmasın bu olsun" və "Səbuhi" kinofilmlərinin çəkildiyi illərə təsadüf edir. 1936-cı ildə verilən quruluş barədə isə "Milli rəqs sənəti" kitabının müəllifləri məlumat verərək Əşrəf Səfərovun fəaliyyətini qeyd ediblər [12, s.147]. Belə qənaətə gəlmək olur ki, "Uzundərə" rəqsi ilk yaradılmış ansamblın repertuarına daxil edilərək verilən ilk quruluşdan sonra, növbəti dəfə Əlibaba Abdullayev tərəfindən yeni quruluş verilmişdi. E.Abdullayevanın verdiyi məlumata görə ustad sənətkarın verdiyi quruluşda "Uzundərə" rəqsi Leyla Cavanşirovanın ifasında 1941-ci ildə "Səbuhi" filmində ifa olunmuşdur [1, s.130]. Əlbəttə bu filmdə rəqsi izlədikdə ifaçının nə qədər zərif və incə əl hərəkətlərini, lirik obrazını müşahidə edirik. Məkanın kiçik olması rəqqasənin daha geniş əhatədə gəzişməsinə imkan verməsə də, bu kiçik fraqmentdə Ə.Abdullayevin Azərbaycan qadın rəqsinin incəliklərinə nə qədər dərindən bələd olduğunu, L.Cavanşirovanın gözəl ifası ilə zərifliyini, incəliyini ustalıqla təqdim etməsini qeyd etmək lazımdır.

Bu rəqs müasir dövrdə Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblının, Azərbaycan Dövlət Rəqs Ansamblının repertuarında olmuş, daha çox solo rəqs kimi ifa edilmişdir. Müasir dövrdə bu rəqsin peşəkar ifaçısı hesab edilən Xalq artisti Təranə Muradova zərif və lirik obrazın bütün incəliklərini ustalıqla əks etdirərək Azərbaycan xalq rəqsini dünya səhnələrində uğurla nümayiş etdirmişdir [13]. Rəqsin duet və kütləvi ifa formaları da olduqca populyardır. 2024-cü il Şuşada keçirilən "Xarı bülbül" festivalında "Uzundərə" rəqsi kütləvi şəkildə ifa olunmuşdur. Bədii rəhbər Xalq artisti Rüfət Xəlilzadənin quruluşunda ifa edilən kompozisiyada rəqsin əsas məzmunu həm kollektiv şəkildə, həm də ikinci hissədə səhnəyə çıxan solistlərin ifasında duet olaraq öz ifadəsini tapmışdır [14]. Qeyd edək ki, "Uzundərə" rəqsi baletmeyster Fərhad Vəliyevin quruluşunda da Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblı tərəfindən ifa olunub. Bu kompozisiya kütləvi şəkildə təqdim edilib. Ümumiyyətlə, bir çox xalq rəqslərimiz peşəkar kollektivlərin repertuarında həm solo, həm də müxtəlif tərkibli ansambllar şəklində ifa edilir. Bu da xalq rəqslərimizin xoreoqrafik imkanlarının, bədii məzmununun zənginliyindən xəbər verir. "Uzundərə" rəqs-kompozisiyası da belə nümunələrdən biridir.

Peşəkar rəqs kollektivlərinin repertuarında yer alan regional rəqslərdən biri də "Qazaxı" xoreoqrafik kompozisiyasıdır. Bu rəqs kütləvi şəkildə ifa edilən kişi rəqsləri qrupunda yer alır. Adından da məlum olduğu kimi, "Qazaxı" rəqsinin Azərbaycanın Qazax bölgəsində yarandığı ehtimal edilir. Rəqsin xarakteri məğrur və vüqarlı kişi obrazını təcəssüm etdirir. Rəqsin xoreoqrafik məzmununda da bu xarakteri əks etdirən hərəkətlər məcmusu yer alır. Bu rəqs də ilk kollektivin yarandığı gündən onun repertuarına daxil olmuşdur. Keçən əsrin 40-cı illərində isə bu rəqsə Əlibaba Abdullayev quruluş verərək onun yeni təfsirini təqdim etmişdir. Mövcud mənbələrə görə bu rəqs əvvəlcə qadın və kişi kollektivi tərəfindən ifa edilidi. Lakin, Ə.Abdullayevin quruluşunda rəqsi ancaq kişilər ifa edir. Rəqsin musiqi məzmununun da bir neçə variantı mövcuddur. Musiqişünasların qeyd etdiyinə görə "Qazaxı" rəqsinin ilk melodiyası Rast məqamında qurulmuş, növbəti illərdə peşəkar instrumental ifaçılar tərəfindən yeni variantları yaranmışdır. "Bu rəqs havasının "Mahur" və "Bayatı-İsfahan" məqamında çalınan variantlarının hər biri melodik baxımdan tutumlu, zəngin çalarlı, duyumlu olub, estetik zövq bəxş edən, hissləri oyadandır" [12, s.111]. Hal-hazırda rəqsin xoreoqrafik kompozisiyaları hər iki melodiyası üzərində qurularaq həm peşəkar, həm də özfəaliyyət rəqs kollektivlərinin repertuarında geniş yer tutur. "Qazaxı" rəqsinin yeni quruluşu xoreoqraf Qəhrəman Nəsirova məxsus olmuşdu. Bu quruluşda "Qazaxı" rəqsi XX əsrin 80-ci illərində tamaşaçılara Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblının ifasında təqdim edilmişdi.

**Nəticə**

Beləliklə, xalq rəqslərinin regional xüsusiyyətlərinin araşdırılması və onların peşəkar səhnə təcəssümünün işıqlandırılması deməyə əsas verir ki, Azərbaycan rəqs sənəti çoxçeşidli və rəngarəng irsi ilə hər zaman inkişaf edərək yeni peşəkarlıq zirvələrini fəth edir. İncəsənətin ən qədim növü hesab

edilən rəqslər bu gün yüksək professionallıq nümayiş etdirən dovlət kollektivlərinin, özfəaliyyət dərnəklərinin və s. repertuarında təbliğ edilərək gələcək nəsillərə ötürülür. Rəqslərin özünəməxsusluğu onların regional xüsusiyyətlərində qorunub saxlanır. Peşəkar xoreoqraf və baletmeysterlər bu xüsusiyyətləri üzə çıxarmaq, qorumaq və gələcək nəsillərə ötürmək üçün böyük əmək sərf etmiş, el-el, oba-oba gəzərək yaşlı nəslin nümayəndələrindən bu rəqslərin icra üsullarını öyrənmişlər. Həm kollektiv, həm də solo rəqslərin regional xüsusiyyətləri onların ilk növbədə xoreoqrafik məzmununda daha çox qorunub saxlanmışdır. Bu cəhəti nəzərə alan Əlibaba Abdullayev, eləcə də F.Vəliyev, Q.Nəsirov, A.Məlikova və digər rəqs ustalarımız zamanla bu rəqslərə yeni həyat bəxş edərək onu müasirləşən dünyanın bədii-estetik tələblərinə uyğunlaşdırmağa çalışmış, eyni zamanda özünəməxsus elementlərini qoruyub saxlamağa nail olmuşlar. Hesab edirik ki, xalq rəqslərimizin hələ də onlarla, yüzlərlə növləri, variantları vardır ki, onların üzə çıxarılaraq xoreoqrafik məzmununun bərpa edilməsi, peşəkar kollektivlərin repertuarına daxil edilməsi müasir xoreoqraflar qarşısında duran ən vacib məsələlərdən biridir. Milli mədəniyyətimizi yaşadan, dünya səhnələrində təmsil edən rəqslərimiz Azərbaycan xalqının keçmişdən gələcəyə aparan əsas sənət sahələrindən biridir. Bu sənətin yaşadılması, qorunması və təbliğ olunması isə hər bir Azərbaycan vətəndaşının mənəvi borcudur.

## ƏDƏBİYYAT


1. Abdullayeva E.Ə. Əlibaba Abdullayev. Bakı, Adiloğlu, 2005. 120 s.
2. Almaszadə Q.H. Azərbaycan xalq rəqsləri. Bakı, Birləşmiş nəşriyyat, 1959. 80 s.
3. Bəhmənli R.B. Azərbaycan yallıları. Bakı: Mütərcim, 2018. 140 s.
4. Bəhmənli R.B. Azərbaycan gəlin havaları. Bakı: Elm və təhsil, 2021. 36 s.
5. Bəhmənli R.B. Azərbaycan Qaytağı rəqsləri. Bakı, Mütərcim, 2019. 72 s.
6. Bəhmənli R.B. Qədim Azərbaycan rəqs havaları. Bakı: Şərq-Qərb, 2021. 672 s.
7. Əhmədov A. Azərbaycan milli rəqsləri. Bakı: Füyuzat, 2023. 196 s.
8. Həsənov K.N. Qədim Azərbaycan xalq rəqsləri. Bakı: İşıq, 1983. 60 s.
9. Həsənov K.N. Azərbaycan qədim folklor rəqsləri. Bakı: İşıq, 1988. 130 s.
10. Hüseynov H.B. Səhnə hərəkəti. Bakı: Maarif, 1985. 136 s.
11. Kərimli Ə. Yallı. Bakı, Şirvannəşr, 2004. 130 s.
12. Rəhmanlı Ə.M., Bəşirov X.Ə. Milli rəqs sənəti. Bakı, Ecoprint, 2019. 580 s.
13. "Uzundərə" rəqsi. İfa edir Təranə Muradova // https://www.youtube.com/watch?v=f7GRWU2f0G4
14. "Uzundərə" rəqsi. İfa edir Azərbaycan Dövlət Rəqs Ansamblı // https://www.youtube.com/watch?v=m6tntxRrvOg



***Bakı Xoreoqrafiya Akademiyasının magistrantı***
***E-mail: lala.allahverdova@gmail.com***

**Lala Seidova**


## REGIONAL DANCES IN THE REPERTOIRE OF PROFESSIONAL DANCE GROUPS


The article reflects research on the study of Azerbaijani folk dances in the regional context. The main goal here is to determine the place of regional dances in the repertoire of professional dance collectives, to explore the history, new interpretations and modern aspects of choreographic compositions. The article provides information on regional examples of folk dances, as well as "Yalli", "Gazakhı" and "Uzundara" dance compositions, included in the repertoire of professional dance collectives, are included in the analysis. During the analysis, the stage history of the mentioned

dances was reviewed and information was given about various structures. In addition to scientific sources, video recordings of dances were also used during the analysis.

**Keywords:** *folk dances, regional characteristics, Yalli, Gazakh*ı, *Uzundara*

**Лала Сеидова**

**РЕГИОНАЛЬНЫЕ ТАНЦЫ В РЕПЕРТУАРЕ ПРОФЕССИОНАЛЬНЫХ ТАНЦЕВАЛЬНЫХ КОЛЛЕКТИВОВ**

В статье отражены исследования по изучению азербайджанских народных танцев в региональном контексте. Основная цель здесь – определить место региональных танцев в репертуаре профессиональных танцевальных коллективов, изучить историю, новые интерпретации и современные аспекты хореографических композиций. В статье представлены сведения о региональных примерах народных танцев, а также в анализ включены танцевальные композиции «Яллы», «Газахи» и «Узундаре», входящие в репертуар профессиональных танцевальных коллективов. В ходе анализа рассмотрена сценическая история упомянутых танцев и даны сведения о различных структурах. Помимо научных источников, при анализе также использовались видеозаписи танцев.

**Ключевые слова:** *народные танцы, региональные особенности, Яллы, Газахы, Узундара*

*AMEA-nın müxbir üzvü Cəfər Qiyasi  tərəfindən təqdim edilmişdir*

**İlk daxilolma tarixi: 10.02.2025**
**Son daxilolma tarixi:11.03.2025**